ARTİKL 54

İcma Akademiyası
COMMUNITY ACADEMY

# Yerli İdarəçilikdə **Gender İştirakının** Təşviqi




**Bakı -** 2025

Ön söz 3

1. Giriş 4

2. Arxa plan 5

2.1 Proqramın başlama səbəbləri, hədəf və məqsədləri

2.2 Nə üçün tullantı problemi?

3. İctimai vəkillik kampaniyasının mərhələləri: anlayışlar və təcrübələr 6

3.1 Hazırlıq mərhələsi 6

3.2 Məhəlli görüşlər 8

3.3 Məsul və maraqlı tərəflərlə görüş 14

a. Məsul və maraqlı tərəflərlə görüş

b. İştirakçılıq üçbucağı ilə kommunikasiya

3.4 Təmizlik aksiyası 20

3.5 Maarifləndirmə tədbirləri 24

3.6 İctimai müzakirə 28

3.7 Monitorinq və qiymətləndirmə 30

4. Nəticələr: nailiyyətlər və çətinliklər 32

4.1 Nailiyyətlərin icmalı

4.2 Çətinliklər, uğursuzluqlar, mümkün həll yolları və çıxarılan dərslər

5. Yekun 34

# Ön söz

Adını Azərbaycan Respublikasının Konstitusiyasının 54-cü maddəsindən alan Artikl 54 İctimai Birliyi qərarların qəbulu proseslərində və ölkənin həyatında vətəndaşların fəal iştirakını təşviq edərək ictimai nəzarəti gücləndirməyə çalışır.

Təşkilat bu məqsədlə yerli səviyyədə icma iştirakını təşviq edir, yerli səviyyəli təşəbbüskar qruplara komandalaşma, bacarıqların və dayanıqlılığın artırılması, mentorluq və maarifləndirmə, hüquqi, təşkilatı və şəbəkələşmə yardımı və ictimai vəkillik kampaniyaları vasitəsilə dəstək göstərir.

2021-ci ildən etibarən fəaliyyət göstərən Artikl 54 artıq 7 iqtisadi rayonun 10 ərazisində - Gəncə, Göyçay, Şəki, İmişli, Lənkəran, Mingəçevir, Astara, Biləsuvar, Zaqatala və Bərdədə icma əsaslı təşkilat və təşəbbüslərlə fəal şəkildə əməkdaşlıq edir.

Bu əməkdaşlıq nəticəsində həyata keçirilən ictimai vəkillik kampaniyaları əsasən sosial, iqtisadi, gender, ekoloji və infrastruktur məsələlərini əhatə edir və bərabər şəkildə həm yerlərdə fəal vətəndaşları səlahiyyətləndirir, həm də yerli səviyyəli problemlərin birgə və konstruktiv həllinə töhfə verərək insanların həyat səviyyəsinin yüksəlməsində rol alır.

# 1.Giriş

Artikl 54 İctimai Birliyi icma-əsaslı təşkilatlarla[1] (bundan sonra - İƏT) birgə tullantıların idarə edilməsi məsələsi ətrafında həyata keçirilmiş ictimai vəkillik kampaniyaları zamanı qeydə alınmış təcrübəni sənədləşdirmək üçün faktlara əsaslanan bir **təcrübə araşdırmasını təqdim edir.** Sənəddə kampaniyanın məqsədləri, ictimai vəkillik fəaliyyətinin planlaşdırılması və mərhələləri, İƏT-lərin təcrübələri, o cümlədən, nailiyyətlər və çatışmazlıqların təhlili və gələcək üçün tösviyələr yer alır. Sənəd 10 komandadan 15 lideri, 67 üzvü və yüzlərlə sakini əhatə edən kampaniya nəticələrini özündə cəmləşdirir, çıxarılan dərslər və uğurlu nümunələrdən bəhs edir. Burada təqdim olunan təcrübələr mövcud resurs və şəraitə uyğun planlaşdırılıb həyata keçirildiyi üçün genişmiqyaslı həllər təqdim etməsə də, icma iştirakını artırmaq istəyən vətəndaş təşəbbüsləri üçün faydalı bir bələdçi rolunu oynayacaqdır.

---

[1]***Artikl 54 Ictimai Birliyinin dəstəyi ilə yaradılan icma-əsaslı təşkilatlar;***

*Gəncə Regional İcma Mərkəzi, Göyçay İcma İnkişaf Mərkəzi, Mil İmişli İcması, Hədəf Şəki İcması, Lənkəran Dəmirağac Təhsil İcması, Mingəçevir İcma İnkişaf Mərkəzi, Biləsuvar İcması, Zaqatala İcması, Astara İcması*

***Əməkdaşlıq etdiyimiz yerli təşkilat;***

*Bərdə Qadın Klubu*

# 2. Arxa plan

## *2.1 Proqramın başlama səbəbləri, hədəf və məqsədləri*

İcma iştirakının gücləndirilməsi yerli və milli səviyyədə idarəçilikdə mühüm rol oynasa da, bu proses bir sıra sistemli maneələrlə üzləşir. İştirak mexanizmlərinin zəifliyi, qadınlar və gənclərin qərar qəbuletmədə məhdud iştirakı və yerli səviyyədə qərarvermə imkanlarının məhdudlaşdırılması əsas problemlər sırasındadır. Eyni zamanda, icma prioritetlərinin nəzərə alınmaması və yerli fəalların bacarıqlarının inkişaf etdirilməməsi iştirakçılığı çətinləşdirir. Bu çətinliklərin həlli məqsədilə Artikl 54 İctimai Birliyi "Genderə Həssas Yerli İdarəetmədə İştirakın Təşviqi" proqramını Azərbaycanın 6 iqtisadi rayonunu əhatə edən 10 rayonda həyata keçirmişdir. Proqram vətəndaş təşəbbüslərini dəstəkləyərək qadınlar və gənclərin icma problemlərinin həllinə fəal qoşulmasını təşviq edir, yerli ətraf mühit məsələlərindən olan tullantılarının idarə olunmasına fokuslanır.

Proqram çərçivəsində ictimai vəkillik əsas fəaliyyət yanaşması kimi qəbul edilmiş, təlimlər, mentorluq və hüquqi-təşkilati dəstək vasitəsilə yerli fəalların bacarıqları artırılmışdır. Bu yanaşma onların gələcəkdə müstəqil icma təşəbbüsləri həyata keçirmək potensialını gücləndirib. Proqramın hazırlanmış vəsaiti, bələdiyyələrin təsir imkanlarının məhdud olduğu mühitdə icma quruculuğu və ictimai vəkillik vasitəsilə yerli problemlərin həllinə töhfə vermək istəyən icma fəallarına dəstək məqsədi daşıyır.

## *2.2 Nə üçün tullantı problemi?*

Azərbaycanda tullantılar problemi ciddi ekoloji və ictimai səhiyyə məsələsi olaraq qalmaqdadır. Dövlət Statistika Komitəsinin məlumatına əsasən 2023-cü ildə ölkədə 4086,1 min ton tullantı yaranmış, bunun 66,6%-ni bərk məişət tullantıları, 33,4%-ni isə istehsalat tullantıları təşkil etmişdir[2]. Problem təkcə tullantıların həcmi ilə məhdudlaşmır, onların düzgün idarə olunmaması da ciddi çətinliklər yaradır. Ölkə üzrə cəmi bir zibil emalı zavodu fəaliyyət göstərir və əksər tullantılar qanunsuz poliqonlarda saxlanılır, basdırılır, yandırılır və ya su hövzələrinə axıdılır. Bu vəziyyət xüsusilə infrastruktur baxımından zəif inkişaf etmiş regionlarda daha kəskin şəkildə hiss olunur.

Artikl 54 İctimai Birliyi icma-əsaslı yanaşmaya üstünlük verərək tullantılar problemini icma fəallarının istək və ehtiyaclarına uyğun olaraq seçmişdir. Bu istiqamətdə təşkilat əvvəllər də yerli səviyyədə ictimai vəkillik kampaniyaları həyata keçirmişdir. İcma fəallarının tullantılar probleminə fokuslanmasının əsas səbəbləri bu problemə kənd, qəsəbə və şəhərlərdə insanların həssas yanaşması və təlimlər zamanı tullantıların idarə edilməsinə dair uğurlu yerli təcrübələrlə tanış olmasıdır. Məsələn, Ağsu rayonunun Gəgəli kənd bələdiyyəsinin keçmiş başçısı Fariz Xəlillinin təşəbbüsləri və Artikl 54-ün yardımı ilə yaradılmış Göyçay İcma İnkişaf Mərkəzi tullantıların icma resursları hesabına idarə olunmasının mümkünlüyünü göstərmişdir. Bu nümunələr proqram iştirakçıları üçün tullantıların effektiv idarə olunmasına dair praktiki bilik və motivasiya mənbəyi rolunu oynamışdır.

---

[2] ***Dövlət Statistika Komitəsi,****'2023-cü ildə tullantıların hərəkəti haqqında', (Aprel 2024),*
***https://www.stat.gov.az/news/index.php?lang=az&id=5844***

# 3. İctimai vəkillik kampaniyasının mərhələləri: anlayışlar və təcrübələr

## *3.1 Hazırlıq mərhələsi*

Yerli məsələlər ətrafında ictimai vəkillik kampaniyalarının hazırlıq mərhələsinin mahiyyəti komanda quruculuğu və ilkin mərhələdə fəaliyyətin düzgün planlaşdırılması ilə bağlıdır. Bu mərhələdə İƏT-lərdə yerli səviyyəli problemlərin həllinə maraq əsas götürülməklə gender bərabərliyi, məsuliyyətlilik, davamlılıq və ardıcıllıq prinsipləri rəhbərliyində komandalar formalaşdırılmalıdır. İctimai vəkillik fəaliyyətinə yerli sakinlər cəlb edilməli, onların ilkin bacarıq və bilikləri qiymətləndirilməli, fəaliyyətə dair məlumatlandırma və kiçik qrup işləri təşkil edilməlidir. İlkin komanda formalaşdırdıqdan sonra isə həll olunması istənilən problemi daha aydın təsəvvür etmək üçün komanda üzvləri qrup işləri, gəzintilər və digər vasitələr vasitəsilə gücləndirilməli və onlarda yerli məsələnin miqyası və həlli ilə bağlı aydın təsəvvür formalaşdırılmalıdır. Problemlə ətraflı tanışlıqdan sonra isə vəzifə bölgüsü aparılmalı və SMART hədəfləri olan fəaliyyət planı tərtib olunmalıdır.

İƏT-lərin bu mərhələ üzrə təcrübələri onların yaranma və formalaşma tarixi ilə əlaqədar olaraq əsasən oxşar olsa da, fərqli ssenarilər yeni yanaşmaları üzə çıxarır;

***Göyçay İcma İnkişaf Mərkəzi***

Hazırlıq mərhələsində 8 nəfərdən ibarət komanda üzvləri ilə mütəmadi görüşlərlə kampaniyanın məqsəd, vəzifə, icra planı müəyyənləşdirilərək iş bölgüsü aparılmışdır. Fəaliyyət göstəriləcək ərazilər seçilərək onların sərhədləri dəqiq şəkildə müəyyən edilmişdir. Yeni iştirakçıların fəaliyyətə cəlb olunması məqsədilə nüfuzlu sakinlərlə əməkdaşlıq edilmiş, fərdi yanaşma tətbiq edilmiş və effektiv ünsiyyət strategiyaları həyata keçirilmişdir. Komanda üzvlərini birləşdirən əsas amillər isə ətraf mühit problemlərinə həssas yanaşma, icma ilə güclü əlaqələr qurmaq istəyi və qadınların iştirakçılığını artırmaq məqsədi olmuşdur.



***Şəkil 1:*** *Göyçay İcma İnkişaf Mərkəzinin məhəlli görüşü*

***Hədəf Şəki İcması***

İlk olaraq, şəhərin təmizliyinə həssas yanaşan aktiv şəxslərlə icma quruculuğunu gücləndirmək məqsədilə eko-yürüş təşkil edildi. Bu yürüşdə iştirak edən 15 nəfərlə tullantıların idarə olunması, ətraf mühitin qorunması və emosional zəka mövzularında müzakirələr aparıldı. “Gələrsən-Görərsən” qalasına velosiped yürüşündən sonra qrup görüşləri və sosial şəbəkələr vasitəsilə daha geniş auditoriyaya çatılaraq fəaliyyətə yeni üzvlər cəlb olundu. Ardınca davamlı monitorinqlər aparılaraq tullantı sahələri öyrənildi və yerli vəziyyətə dair daha aydın təsəvvür formalaşdırıldı.



***Şəkil 2:*** *Hədəf Şəki İcmasının ekoloji gəzintisi*

***Gəncə Regional İcma Mərkəzi***

6 nəfərlik komanda daxilində əlaqələri daha da möhkəmləndirmək və birlik hissini gücləndirmək üçün müxtəlif komanda quruculuğu metodlarından istifadə olundu. Xüsusilə, qeyri-rəsmi söhbətlər və “2 doğru, 1 yalan” kimi buzqırma (*ice-braking ing.*) məşğələləri komanda üzvlərinin bir-birini yaxından tanımasına, komanda daxilində dostluq və qarşılıqlı dəstəyin artmasına imkan yaratdı. Komandamızın bir üzvünün Gülüstan qəsəbəsində yaşaması və ərazinin sosial problemlərini dərindən bilməsi bizim üçün mühüm bir üstünlük oldu. Komanda görüşlərində əsas diqqət iş planının tərtib olunmasına, öhdəliklərin aydın şəkildə bölüşdürülməsinə və resursların effektiv şəkildə yönləndirilməsinə yönəldildi.

***Mil İmişli İcması***

Bu mərhələdə Mil icması 6 nəfərlik komanda formalaşdırıb. Magistral Təsərrüffat Suvarma (*bundan sonra - MTS*) arxı boyunca keçirilən monitorinq zamanı ərazidə mövcud tullantı problemləri sənədləşdirildi və əsas çirklənmə mənbələri müəyyən edildi. Problemin geniş təsirini və əhəmiyyətini nəzərə alaraq, yerli sakinlərlə məhəlli görüşlər təşkil edildi və onların ən fəal nümayəndələri kampaniyaya cəlb edildi. Komanda üzvlərini birləşdirən əsas amil problemin təsirini birbaşa hiss etmələri və bu məsələnin həlli üçün ortaq məsuliyyət daşımaq istəyi oldu. Mil icması əvvəlki təcrübələri və yeni monitorinqlər əsasında tullantıların idarə edilməməsinin səbəblərini araşdıraraq, yerli icra orqanları və su-meliorasiya qurumları ilə əməkdaşlıq qurdu.

İcma quruculuğunun yeni başladığı və ya ləng irəlilədiyi Mingəçevir, Zaqatala, Biləsuvar və Astara rayonlarında fəallar icma iştirakına maraqlı şəxslərdən ibarət komandalar təşkil etdilər. Bərdə Qadın Klubu isə əlaqələrin zəif olduğu Alaçadırlı kəndini seçdi. Ümumilikdə, 10 icmanı təmsil edən 15 fəalın ətrafında 61 nəfərdən ibarət komandalar yaradıldı ki, onların 40-ı qadın, 21-i kişi idi. Konkret tullantı problemi ətrafında aparılan bu fəaliyyətlər, oturuşmuş komandaların yeni üzvlərlə güclənməsinə, yeni formalaşan İƏT-lərdə isə təşkilati təməllərin atılmasına töhfə verdi. Komandalar əsasən eko-yürüş tipli icma gəzintiləri təşkil edərək 10 rayonda 23 qəsəbə, kənd və məhəlləni əhatə etdilər və daha sonra Artikl 54-lə birgə hazırlanan ictimai vəkillik planına uyğun fəaliyyətə başladılar.

## *3.2 Məhəlli görüşlər*

Məhəllə və qonşuluq görüşləri yerli sakinləri iştiraka sövq etmək, onların dəstəyini qazanmaq, təkliflərini öyrənmək və əlaqələri möhkəmləndirməyə imkan verir. İcma quruculuğu prosesinin ilkin addımını kimi belə görüşlər həm də sakinlərin xüsusiyyətləri, bacarıqları və imkanları haqqında daha ətraflı məlumat əldə etməyə şərait yaradır. Məhəlli və ya qonşuluq görüşləri zamanı kampaniyanın aparılacağı ərazini məhəlləni yaxşı öyrənmək lazımdır. Bundan başqa, komanda ilə birgə məhəlləni xəritələyərək, sakinləri və onların maraqlarını müəyyən etmək lazımdır.

Görüşlər müxtəlif formatlarda keçirilə bilər: misal üçün məhəllədəki tanış məkanlarda və ya təşkil etdiyiniz çay süfrəsi ətrafında.  Bu görüşlərdə iştirakçılarla münasibət qurularkən təhlükəsiz və inklüziv mühit qurulmalı, müzakirələr sadə və diqqətçəkən fikirlər ətrafında aparılmalıdır. Həmçinin iştirakçıları təşəbbüskarlığa sövq etmək üçün birgə fəaliyyətin gücü və icma təşəbbüslərinin qadınlar və uşaqlar kimi həssas qruplar da daxil olmaqla bütün icma üzvlərinin rifahı üçün nəzərdə tutulduğu vurğulanmalıdır. Bundan başqa, tərəflər arasında münaqişələrə yol verilməməli, hər şeyin qarşılıqlı anlaşma və əməkdaşlıq əsasında irəliləməsi təmin edilməlidir.

İcma liderləri olaraq, aşağıdakı keyfiyyətləri daim nümayiş etdirmək vacibdir:

- Yaşadığınız yeri və icmanı yaxşı tanımaq.
- İcmanın həyatına və hekayələrinə bələd olmaq.
- Ünsiyyətcil və səmimi olmaq.
- Dəqiqlik və vaxtında tədbirlərə qatılmaq.
- Gələcəyi düşünərək təmkinli davranmaq.
- İrəliləməyə olan inamı ifadə edərək insanları ruhlandırmaq.

Belə görüşlər nəticəsində icma fəallarının sakinlər tərəfindən dəstəklənməsi onların tələblərinin legitimliyini artırır və daha geniş iştirakçılığı təşviq edərək rifah səviyyəsinin yüksəlməsinə töhfə verə bilər. Eyni zamanda, bu yanaşma tullantıların idarə olunmasına cavabdeh dövlət qurumları ilə sağlam ünsiyyətin və effektiv əməkdaşlığın qurulması üçün mühüm əhəmiyyət daşıyır.

İƏT-lərin məhəlli və ya qonşuqluq görüşləri üzrə tərcübələri isə belə olub;

***Gəncə Regional İcma Mərkəzi***

Gəncə şəhərinin Gülüstan qəsəbəsində 18-65 yaş aralığındakı 56 sakini əhatə edən məhəlli görüşlər keçirildi. Görüşlərdə əsas müzakirə mövzusu olan zibil qutularının sayının azlığı və ağzının açıq olması ilə bağlı sakinlərin fikirlərini öyrəndik.

Əksər sakinlər bu vəziyyətdən narazı olduğunu bildirdi, həmçinin bəzi iştirakçılar ətraf mühitin təmizliyini qorumaq üçün maarifləndirmə tədbirlərinin vacibliyini vurğuladılar. Sakinlər bizim təşəbbüsümüzü böyük dəstək ilə qarşılayaraq, problemin həlli istiqamətində atılacaq addımlarda iştirak etməyə hazır olduqlarını bildirdilər. Bir neçə sakin təklif və ideyalarını bizimlə bölüşdü, xüsusilə zibil qutularının yerləşmə yerlərinin yenidən müəyyən olunması və ətrafın müntəzəm təmizlənməsi təklifləri səsləndi.



***Şəkil 3:*** *Gəncə Regional İcma Mərkəzinin məhəlli görüşü*

***Hədəf Şəki İcması***

Hazırlıq mərhələsində şəxsi əlaqələrimiz vasitəsilə müəyyən etdiyimiz bir neçə problemli ərazidə görüşlərə başladıq. Bu ərazilərdə yaşayan12 aktiv sakinlə birbaşa əlaqələr qurulub və onların vasitəsilə tullantı məsələsi ilə bağlı rəy və təkliflər dinlənilib. Görüşlərdən öyrəndiklərimizdən bəziləri bunlardır:

*“Hansısa televiziya kanalından gəlib çəkiliş edib, amma heç kim müraciətimizə baxmayıb.” (Hikmət Ziya küçəsi, 70 yaşlı qadın)*

*“Burada təzə ev almışam, amma indi peşmanam. Yaşamaq olmur.” (Hikmət Ziya küçəsi, təxminən 40 yaşlı kişi)*

*“Yağış yağanda buradan keçə bilmirik, su dağılır. Uşaqlar məktəbə gedə bilmir.” (Hikmət Ziya küçəsi, 60 yaşlı kişi)*

*“Oğlum zibilin atılmaması üçün kamera almışdı, amma quraşdırmağa icazə verilmədi.” (1-ci rayon ərazisi, 80 yaşlı sakin)*

İcma üzvləri qeyd etdi ki, əvvəlcə sakinlərin bu problemlə bağlı məlumatsız olduqlarını düşünürdü, amma görüşlərdən sonra onların lazımi addımları atdıqlarını, lakin nəticə ala bilmədiklərini gördü. Bu, sakinlərin problemlərini həll etmək üçün göstərdikləri səylərin qarşılıqsız qaldığını göstərdi.

***Göyçay İcma İnkişaf Mərkəzi***

Kampaniya çərçivəsində 3 məhəllədə müxtəlif sosial qruplardan olan 150 yerli sakinlə görüşlər keçirdik. Görüşlərdə müəllimlər, evdar qadınlar, təqaüdçülər və məktəblilər iştirak etdilər. Bu müzakirələr nəticəsində sakinlərin əsas problemləri və ehtiyacları müəyyən olundu. Əli Kərim küçəsində məişət tullantılarının düzgün idarə olunmaması, binaların dam örtüklərinin yararsız vəziyyətdə olması, asfalt örtüyünün olmaması, işıqlandırma çatışmazlığı və uşaqlar üçün oyun sahələrinin azlığı əsas problemlər kimi vurğulandı. Bakı və Mehdi Hüseynzadə küçələrində də bənzər məsələlər qeyd edildi. Xüsusilə tullantıların düzgün toplanmaması, binaların təmirə ehtiyacı və xeyir-şər məkanlarının olmaması sakinlərin narahatlıq doğuran mövzuları arasında idi.

İlk mərhələdə sakinlər müəyyən tərəddüdlər göstərsələr də, bəzi problemlərin operativ həlli onların bizə olan inamını artırdı. Xüsusilə Bakı küçəsində kanalizasiya borusunun təmiri və Mehdi Hüseynzadə küçəsində kanalizasiya xəttinin bərpası sakinlərə göstərilən dəstəyin konkret nəticələrini ortaya qoydu. Sakinlərə öz problemlərini aydın şəkildə ifadə etmək imkanı yaratmaq, onların həllinə daha effektiv yanaşmanı təmin edir. Hər məhəllədə sakinlərlə görüşərək onların qarşılaşdığı çətinlikləri dinlədik. Bu, yerli əhalinin marağını artırdı və icma üzvlərini daha fəal iştirak etməyə sövq etdi. Bundan əlavə, təşkilatımızın fəaliyyəti, məqsədləri və əvvəlki uğurlu təşəbbüslər barədə sakinlərə məlumat vermək, bizə olan etimadı gücləndirdi və onların marağını daha da artırdı.

***Mil İmişli İcması***

Məhəllə görüşlərinə qədər problem bizə nə qədər tanış olsa da, biz bu görüşlərdə əhali sayı 2000 nəfər olan 5 küçədə 100-dən çox sakinlə birbaşa görüşlər keçirərək əlavə məlumatlar öyrəndik. Məsələn, arxın suyunun heç bir məqsədlə istifadə edilməməsi, arx üzərindəki piyada keçidlərinin təhlükəli olması və suyun bəzi hissələrdən ətraf ərazilərə sızması kimi məsələlər qeyd olundu. Görüşlərdən sonra biz əmin olduq ki, ictimai iştirakçılıqdan kənarda qalan insanları, onları narahat edən problemlər ətrafında birləşdirmək mümkündür. Təşəbbüs sakinlər tərəfindən müsbət qarşılandı, xüsusilə də bunun bir dövlət orqanından deyil, sadə vətəndaşların birliyi tərəfindən irəli sürülməsi onların marağını daha da artırdı. Biz sakinləri inandırmaq üçün onlara kampaniyanın məqsədləri barədə məlumat verdik, həmçinin bu məlumatları vərəqlər şəklində də payladıq. Daha çox adamı cəlb etmək üçün ictimai nüfuzlu şəxslərlə fərdi söhbətlər apardıq və onların dəstəyini qazandıq.

***Biləsuvar İcması***

Məhəlli və qonşuluq görüşlərinə ilk olaraq Çinarlı kəndində öz qonşularım və qohumlarımla başladım. Növbəti görüşlər isə Aranlı kəndində keçirildi. Hər iki kənddə 18-dən çox evdar qadınla birbaşa əlaqə quruldu. Bu görüşlər zamanı su və tullantı problemi sakinlər üçün ən vacib məsələlərdən biri kimi ön plana çıxdı. Xüsusilə evdar qadınlar bu problemləri daha açıq şəkildə ifadə edir və onların təsirlərini aydın görürdülər. Tullantıların yaratdığı fəsadları vurğulayan nümunələr düşündürücü idi. Mənim bu məsələdə fəal iştirakım sakinləri sevindirdi və onlar hətta bir sıra təkliflər irəli sürdülər.

Bununla belə, bəzi sakinlərin bu məsələyə biganə yanaşması məyusedici oldu. Bəziləri tullantı problemini narahatlıq doğuran məsələ kimi görmədiklərini, hətta zibilləri yandırdıqlarını və ya basdırdıqlarını bildirdilər. Onlar zibilin daşınmaması ilə bağlı ciddi narahatlıq keçirməsələr də, suyun yay aylarında məhdud olması məsələsinin daha prioritet olduğunu vurğuladılar. Bu görüşlərdən sonra bir daha aydın oldu ki, kənd sakinləri arasında tullantıların düzgün idarə olunması və onun cəmiyyətə təsiri barədə məlumatlılığın artırılması vacibdir. Maarifləndirmə və təhsil sahəsində addımlar atmaq bu problemin həllində əsas istiqamətlərdən biri olmalıdır.

***Zaqatala İcması***

Zaqatalada əhalinin ən sıx əhalisinin məskunlaşdığı Qala Düzü (Sülh küçəsi) ərazisində 10-a yaxın yerli sakinlə görüş keçirdik. Əhali tullantıların daşınması ilə bağlı yaşadıqları problemləri bizimlə bölüşdü və biz də həmin məsələləri aidiyyəti orqanlara bildirmək üçün vəd verdik. Əhalinin əsas şikayətləri tullantıların yığılması üçün konteynerlərin azlığı və binanın həyətindəki uşaq meydançasına yaxın olması ilə bağlı idi. Bu, uşaqların təhlükəsizliyi üçün ciddi narahatlığa səbəb olur. Bundan əlavə, rayonda ən böyük problemə çevrilən küçə itləri məsələsi də önə çıxır.

### *Astara İcması*

Görüşlər kənd ağsaqqalları, bələdiyyə və icra nümayəndələri ilə Astara rayonunun 5 kəndində (Asxanakəran, Əzərüd, Bırsüt, Bəlbay, Sığadül) keçirildi. Sakinlər ətraf mühitin zibillənməsinin həyat üçün təhlükə olduğunu vurğuladı və tullantıların düzgün atılmadığını göstərən nümunələr verdilər. Bir çox sakin təşəbbüsü dəstəkləyir və ətraf mühitin qorunması istiqamətində fəal iştirak etməyə hazırdır. Daha çox adam cəlb etmək üçün insanlara təşəbbüsün faydalarını anlatmaq, aktiv maarifləndirmə və praktiki tədbirlər həyata keçirmək vacibdir. Görüşlərdən sonra, tullantıların düzgün idarə edilməsi üçün infrastrukturun təkmilləşdirilməsi və yeni resursların təmin edilməsinin vacib olduğu qənaətinə gəldik.

### *Mingəçevir İcma İnkişaf Mərkəzi*

Görüşlər icma üzvləri, xüsusilə Mingəçevir Dövlət Universiteti və Mingəçevir Turizm Kollecinin tələbələri ilə keçirildi. Gənclər, əsasən təhlükəsizlik, infrastruktur, təhsil və səhiyyə xidmətlərinin keyfiyyəti ilə bağlı narahatlıqlarını bildirdilər, həmçinin ekoloji problemlərə dair təkliflər verdilər. Çoxsaylı gənclər təşəbbüsü müsbət qarşılayıb, fəal iştirak etməyə həvəsli oldular, lakin bəzilərində təşəbbüslərin faydalılığına dair şübhələr vardı. Sosial media və yerli xəbərlər vasitəsilə daha çox adam cəlb edilməsi üçün tədbirlər görüldü. Görüşlərdən sonra ekoloji məsələlərə yanaşmalarımız dəyişdi və gənclərin bu sahədəki rolu daha əhəmiyyətli görünməyə başladı. Gənclərin daha aktiv iştirak etməyə hazır olmaları, icma əsaslı yanaşmaların daha səmərəli olacağını göstərdi.

### *Lənkəran Dəmirağac Təhsil İcması*

Dəmirağac təhsil icması yerli şəraitə uyğun olaraq ictimai vəkillik kampaniyasını daha çox maarifləndirmə vəzifələrinə diqqət yetirib. Rayonun Tütəpeştə və Viravul kəndlərində tullantı problemləri nəzərdən keçirilib. Yerli icma təşkilatı məktəblilərin maarifləndirilməsi ilə yanaşı ekoloji vərdişlərin möhkəmləndirilməsi üçün stimullaşdırıcı tədbirlər həyata keçiriblər.



***Şəkil 4:*** *Lənkəran Dəmirağac İcmasının məktəblilərlə maarifləndirmə tədbiri*

***Bərdə Qadın Klubu***

Rayonun Alaçadırlı kəndində keçirilən kampaniyanın bu mərhələsi 10-dan artıq qadını əhatə edib. Yerli iştirakçılığın aşağı səviyyədə olduğu bu kənddə tullantıların idarə olunması ilə bağlı müvafiq qaydalar tətbiq olunmur. Tullantı qalaqlarının yandırılması və səpələnməsi adi hallardan biri kimi müşahidə olunur.



***Şəkil 5:*** *Bərdə Qadın Klubunun məhəlli görüşü*

Beləliklə, İƏT-lər bu mərhələdə 10 rayonda təxminən 650 sakinlə görüş keçirmişdir. Bu görüşlər həm fərdi, həm də kollektiv formatda təşkil olunmuş və adətən insanların sıx toplaşdığı məhəllələrdə, istirahət guşələrində keçirilmişdir. Ümumiyyətlə, görüşlərdə sakinlər İƏT-lərin təşəbbüsünü müsbət qarşılamışdır. Görüşlərdə iştirak edənlərin əhəmiyyətli hissəsini qadınlar təşkil etmişdir. Sakinlərin fikirlərindən aydın olur ki, tullantılar məsələsi xüsusilə qadınları daha çox narahat edir.

Tullantılar problemi müxtəlif İƏT-lərdə əsasən oxşar formada özünü göstərir: konteynerlərin çatışmazlığı və ya ümumiyyətlə olmaması, tullantıların mütəmadi daşınmaması, qanunsuz tullantı poliqonlarının yaranması, su hövzələrinin çirklənməsi və tullantıların emalının təmin edilməməsi. Bununla yanaşı, təşəbbüsə baxışlar arasında fərqlər də mövcuddur. Sakinlər tərəfindən bəzən icma təşəbbüslərinə və onların effektivliyinə qarşı inamsızlıq bu əməkdaşlığın möhkəmlənməsinə mane olur. Bu səbəbdən tullantı probleminin dayanıqlı həlli üçün icma iştirakçılığında qadınların daha fəal rol alması vacibdir.

## 3.3 Məsul və maraqlı tərəflərlə görüş

*a. Məsul və maraqlı tərəflərlə görüş*

İctimai vəkillik fəaliyyətinin üçüncü mərhələsi məsul və maraqlı tərəflərlə sakinlər arasında əlaqələrin qurulmasını və qərarvericilərin tullantı probleminin həllinə təşviq edilməsini nəzərdə tutur.

**Məsul tərəflər** yerli və milli səviyyədə fəaliyyət göstərən dövlət qurumlarıdır: icra hakimiyyəti, sanitar və təmizlik idarələri, Ekologiya və Təbii Sərvətlər Nazirliyi (*bundan sonra - ETSN*), Dövlət Su Ehtiyatları Agentliyi, bələdiyyə qurumları və digər mərkəzi qurumların yerli şöbələri. Onlarla əməkdaşlıq ictimai vəkillik fəaliyyətinin daha effektiv olmasına imkan verir və bu qurumların dəstəyi, administrativ maneələrin azaldılması baxımından vacibdir.

**Maraqlı tərəflər** isə, məişət tullantıları ilə bağlı problemin həllində maraqlı olan kiçik və orta sahibkarlar, iri istehsalat sahibkarları, qeyri-hökumət təşkilatları və yerli təşəbbüslərdir. Onların cəlb edilməsi ictimai vəkillik kampaniyasına maddi və material dəstəyin alınmasına, habelə İƏT-ların fəallığının artırılmasına xidmət edə biləcəyi nəzərdə tutulmuşdu.

İƏT-lər ictimai vəkillik kampaniyasının məqsədini izah edərkən, fəaliyyətin könüllü əsaslarla həyata keçirildiyini və ümumi sosial-iqtisadi vəziyyətin yaxşılaşdırılmasına yönəldiyini vurğulamışlar. Xüsusilə, 2024-cü ildə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (*bundan sonra - COP29*) Azərbaycanda keçirilməsi və “Yaşıl dünya naminə” həmrəylik ilinin elan edilməsi kimi təşəbbüslərin bu məqsədə nail olunmasına töhfə verə biləcəyi qeyd edilmişdir.

İctimai vəkillik fəaliyyətinin effektiv olması üçün yerli maraqlı tərəflərlə əməkdaşlıq vacibdir. Bu əməkdaşlıq çərçivəsində icma nümayəndələri ilə müvafiq qurumların iştirak etdiyi görüşlər təşkil edilməli, görüşlərdə problemlərin həlli yolları müzakirə edilməlidir. Görüşlərdə kampaniyanın məqsədi təkrar elan edilməli və bütün tərəflərin icma rifahı üçün birgə hərəkət etməyə hazır olduğu vurğulanmalıdır.

Problemin həlli hissəsində tərəflər arasında səmərəli əməkdaşlığın təmin olunması məqsədilə zərərçəkənlər, səlahiyyətli qurumlar və maraqlı tərəflər birgə addımlar atmalı, müzakirələr aparılmalı və qərarların qəbulu prosesində qarşılıqlı kommunikasiya gücləndirilməlidir. Bu yanaşmanın yerli problemlərin həllində daha səmərəli nəticələr verəcəyi proqnozlaşdırılır.

İndi isə bu mərhələ çərçivəsində bəzi İƏT-lərin təqdim etdiyi ssenarilərə nəzər salaq:

***Göyçay İcma İnkişaf Mərkəzi***

Sanitar Təmizlik İdarəsinə məhəllələrdəki təmizlik və tullantıların daşınması məsələlərinin həlli üçün müraciət etdik və bu sahədə davamlılığı təmin etmək məqsədilə əməkdaşlıq apardıq. Göyçay Şəhər Bələdiyyəsi ilə məhəllələrdəki infrastruktur problemlərini və sakinlərin şikayətlərini müzakirə edərək, onların həlli üçün tədbirlər planının hazırlanması barədə görüş keçirdik. Göyçay İcra Hakimiyyəti ilə əlaqə saxlayaraq əhalinin tələblərini nəzərə alıb müxtəlif addımlar atmağa çağırdıq. Görüşdə mühüm məsələlər müzakirə olundu və problemlərin həlli üçün konkret tədbirlər planı təqdim edildi. ETSN regional idarəsi ilə ətraf mühit və tullantıların düzgün idarə olunması, eləcə də tullantıların təkrar emalı mövzusunda müzakirələr apardıq.

Göyçay Şəhər Mənzil-Kommunal Təsərrüfatı və İstehsalat Birliyi (bundan sonra - MKTİB) ilə kanalizasiya sistemi və dam örtükləri ilə bağlı infrastruktur problemlərini müzakirə etdik və bu məsələlər üzrə həll yolları barədə əməkdaşlıq etdik. Dövlət qurumları icma təşəbbüslərini müsbət qiymətləndirərək problemlərin birgə təqdim edilməsini və həll yollarının müzakirəsini təqdir etdilər. Onlar icmanın aktiv iştirakının məsələlərin həllinə töhfə verəcəyini vurğuladılar. Görüşlərdən sonra, dövlət qurumları ilə icma arasında əməkdaşlığın problemlərin həllini daha sürətli və effektiv edəcəyinə dair fikrimiz möhkəmləndi. Bu əməkdaşlıq həm məsuliyyəti, həm də nəticələrin effektivliyini artırır.

***Gəncə Regional İcma Mərkəz***i

İlk görüşümüzü Gülüstan qəsəbəsinin iki sakini ilə birlikdə MKTİB nümayəndəsi ilə keçirdik. O problemin birbaşa sakinlərin dilindən öyrənilməsini müsbət qarşıladı. Daha sonra MKTİB-in rəhbərliyi ilə görüşdük və onlar ekologiya ilində atdığımız addıma görə təşəkkürünü bildirdi. Görüş zamanı Gülüstan qəsəbəsində zibil qutularının sayının artırılması və onların strukturlarının dəyişdirilməsi ilə bağlı təkliflər irəli sürdük. Nurəhməd Əhmədov qutuların sayının artırılmasının mümkün olduğunu, lakin ağzı örtülü qutuların qoyulması üçün büdcənin yetərli olmadığını qeyd etdi. Bunun gələcəkdə həll ediləcəyinə dair söz verdi.

Daha sonra 10 saylı Regional Ekologiya İdarəsinin rəisi ilə görüşdük. Bu görüş ekoloji problemlərin həlli və ictimai maarifləndirmənin artırılması baxımından müsbət əməkdaşlıq imkanları yaratdı. Azər Quliyev təmizlik aksiyalarında iştirakla bağlı əməkdaşlıq təklif etdi və gələcək fəaliyyətlər barədə müzakirələr apardıq. Bizə birgə fəaliyyətlərin davam etdirilməsi ilə bağlı təklif irəli sürüldü. Bu əməkdaşlıq icmamızın inkişafına və ekoloji məsuliyyətin artırılmasına töhfə verəcək. Görüşlərdən sonra dövlət qurumları ilə əlaqələrimiz davam edir.

***Hədəf Şəki İcması***

İştirakçılıq üçbucağı çərçivəsində Şəki "Yuxarı Baş" Milli Tarix Memarlıq Qoruğu, Şəki MKTİB və ETSN-in 7 saylı Regional İdarəsi ilə görüşlər keçirdik. Əvvəlcə onlayn müraciət etdik, lakin effektiv nəticə əldə etmədiyimiz üçün birbaşa görüşlər təşkil etdik. Bu görüşlərdə icmamız, vətəndaşların qarşılaşdığı problemlər və həyata keçirmək istədiyimiz layihələr barədə məlumat verdik. Dövlət qurumları öz öhdəliklərini və maddi çətinliklərini paylaşdılar, ETSN-in 7 saylı Regional İdarəsi isə mülki ərazilərdə cərimə tətbiq etməkdə çətinlik çəkdiklərini bildirdi.



***Şəkil 6:*** *Hədəf Şəki İcmasının MKTB-nin rəisi ilə görüşü*

Dövlət qurumları təşəbbüsümüzə müsbət yanaşdı və əməkdaşlığa hazır olduqlarını qeyd etdilər. Şəki "Yuxarı Baş" Milli Tarix Memarlıq Qoruğu kamera yerləşdirmə üçün büdcə ayırmadıqlarını, lakin icazə prosesində dəstək verəcəklərini bildirdi. ETSN-in 7 saylı Regional İdarəsi ilə Giləhli minarəsi ətrafında iştirakçılıq üçbucağını həyata keçirdik, eyni zamanda Şəki MKTİB ilə ərazilərdə təmizlik və xəbərdarlıq lövhələrinin yerləşdirilməsi istiqamətində fəaliyyətlərimizi davam etdirdik. Bu görüşlər dövlət qurumları ilə əməkdaşlığın daha sistemli və faydalı ola biləcəyinə dair fikrimizi möhkəmləndirdi.

***Gəncə Regional İcma Mərkəzi***

İlk görüşümüzü Gülüstan qəsəbəsinin iki sakini ilə birlikdə MKTİB nümayəndəsi ilə keçirdik. O problemin birbaşa sakinlərin dilindən öyrənilməsini müsbət qarşıladı. Daha sonra MKTİB-in rəhbərliyi ilə görüşdük və onlar ekologiya ilində atdığımız addıma görə təşəkkürünü bildirdi. Görüş zamanı Gülüstan qəsəbəsində zibil qutularının sayının artırılması və onların strukturlarının dəyişdirilməsi ilə bağlı təkliflər irəli sürdük. Nurəhməd Əhmədov qutuların sayının artırılmasının mümkün olduğunu, lakin ağzı örtülü qutuların qoyulması üçün büdcənin yetərli olmadığını qeyd etdi. Bunun gələcəkdə həll ediləcəyinə dair söz verdi.

Daha sonra 10 saylı Regional Ekologiya İdarəsinin rəisi ilə görüşdük. Bu görüş ekoloji problemlərin həlli və ictimai maarifləndirmənin artırılması baxımından müsbət əməkdaşlıq imkanları yaratdı. Azər Quliyev təmizlik aksiyalarında iştirakla bağlı əməkdaşlıq təklif etdi və gələcək fəaliyyətlər barədə müzakirələr apardıq. Bizə birgə fəaliyyətlərin davam etdirilməsi ilə bağlı təklif irəli sürüldü. Bu əməkdaşlıq icmamızın inkişafına və ekoloji məsuliyyətin artırılmasına töhfə verəcək. Görüşlərdən sonra dövlət qurumları ilə əlaqələrimiz davam edir.

***Mil İmişli İcması***

İştirakçılıq üçbucağının qurulması problemin həlli üçün vacib idi. Problemdən təsirlənənlərin məsul qurumlara müraciəti kampaniyanın etibarlılığını artırırdı. Buna görə komandamız yerli sakinlərin nümayəndələrini cəlb etdi və İmişli rayon İcra Hakimiyyətinin İmişli şəhəri üzrə nümayəndəliyi, İmişli Gigiyena və Epidemiologiya Mərkəzi, Qida Təhlükəsizliyi Agentliyinin regional idarəsi, İmişli MKTİB, İmişli bələdiyyəsi və İmişli Su-Meliorasiya İstismarı İdarəsi ilə görüşlər keçirdi. Qurum rəhbərləri ilə telefon əlaqəsi saxlayaraq kampaniyanın məqsədlərini izah etdik, görüşlərdə isə problemin həlli üçün mövcud imkanları və əməkdaşlıq yollarını müzakirə etdik. Dövlət və bələdiyyə qurumları problemin ciddiliyini qəbul edərək həllində maraqlı olduqlarını bildirdilər. Qaldırdığımız ekoloji məsələlər diqqətlə qarşılandı, MTS arxı ilə bağlı təşəbbüsümüz aktual hesab edildi.

Görüşlər dialoq və əməkdaşlığın davam etdiyini göstərsə də, bəzi qurum nümayəndələrinin sonrakı davranışı vətəndaş cəmiyyətinə qarşı qeyri-adekvat yanaşmanı ortaya qoydu. Problemin tam həll olunmaması səbəbindən dövlət qurumları ilə ünsiyyət davam edir.

***Biləsuvar İcması***

Regional Ekologiya İdarəsi və Yerli İcra nümayəndəliyi ilə görüşlər keçirərək, icmanın inkişafı üçün həyata keçirmək istədiyimiz fəaliyyətləri təqdim etdik və onların dəstəyini istədik. Ekologiya İdarəsindən ağacəkmə aksiyası üçün ağacların verilməsini təklif etdik, lakin onların bu təklifi yerinə yetirə bilməyəcəkləri bildirildi. Bununla belə, aksiyada iştirak edərək dəstək verə biləcəklərini qeyd etdilər. Çinarlı və Aranlı kənd İcra nümayəndəliyi ilə görüş zamanı əvvəlcə təşəbbüsümüzə dair suallar verildi və fəaliyyətimizin məqsədi soruşuldu. Lakin görüşün sonunda təşəbbüsümüzün icma üçün faydalı olduğunu qəbul etdilər. Görüş zamanı, əsas məsələlərdən biri olan zibil qutularının olmaması və bu səbəbdən tullantıların düzgün daşınmaması müzakirə edildi. İcra nümayəndəsi bu məsələnin bələdiyyənin səlahiyyətində olduğunu bildirdi.

İcra nümayəndəliyi ilə görüşdə onların icma fəaliyyətinə qeyri-ciddi yanaşması müəyyən məyusluq yaratdı. Buna baxmayaraq, ünsiyyəti davam etdirdim və sonrakı iki müzakirədə icmanın problemlərin həllinə maraqlı və əzmkar olduğunu vurğuladım. Ekologiya İdarəsi ilə üç dəfə telefonla əlaqə saxladıq və onlar fəaliyyətimizi dəstəklədiklərini, gələcəkdə bizimlə birgə layihələr həyata keçirmək istədiklərini bildirdilər. Bu əməkdaşlıq, icma və dövlət qurumlarının birgə səyləri nəticəsində daha səmərəli həll yollarına gətirib çıxara bilər.

***Mingəçevir İcma İnkişaf Mərkəzi***

Hər bir dövlət qurumunun və maraqlı tərəfin əsas məsələlərə dair öhdəliklərini və maraqlarını anlamaq məqsədilə hazırlıq işləri apardıq. Görüşləri təşkil etmək üçün müxtəlif əlaqə kanallarından istifadə etdik, rəsmi dəvətlər göndərdik və görüş gündəmini müəyyənləşdirdik.

Görüşlər ETSN-in 8 saylı Regional İdarəsi, Mingəçevir Gənclər Evi və Mingəçevir Dövlət Universiteti ilə keçirildi. Görüşlərdə şəhərdə olan ekoloji məsələlər və layihəmizin idarə edilməsi ilə bağlı onlarda hansı dəstək ala biləcəyimiz müzakirə edildi. Eyni zamanda, layihə çərçivəsində əməkdaşlıq imkanları və icmanın inkişafına töhfə vermək məqsədilə mümkün fəaliyyətlərdən bəhs olundu. Müraciət etdiyimiz dövlət qurumları müraciətimizi müsbət cavablandırdı və ilkin görüşlərdə hər cür dəstək veriləcəyini bildirdi. Lakin Ekologiya İdarəsi ilə sonradan ekoloji aksiyanın keçirilməsi ilə bağlı bəzi problemlər ortaya çıxdı. Aksiyanın həyata keçirilməsində yaranan gecikmələr səbəbindən, bu tədbiri təşkil etməkdən imtina etdik.

Dövlət qurumları ilə əlaqələr qurarkən daha diqqətli və təmkinli olmağı öyrəndik. Hansı məsələlərə diqqət etməli olduğumuzu və müraciət edərkən hansı yanaşmaların daha faydalı olduğunu anladıq. Bu prosesdə şəxsi əlaqələrin böyük əhəmiyyət kəsb etdiyini müşahidə etdik.

*b. İştirakçılıq üçbucağı ilə kommunikasiya*

İctimai vəkillik fəaliyyətlərinin əsas hədəflərindən biri dövlət qurumlarının diqqətinin cəlb edilməsidir. Əksər hallarda qaldırılan məsələlərin həllinə cavabdeh olanlar məhz dövlət qurumları olur. İƏT-lərin müvafiq dövrdə apardığı fəaliyyətin məğzini anlamaq üçün tullantılar haqqında qanunvericilikdən çıxarışlar vermək zəruridir.

“Tullantılar haqqında” Qanun dövlət qurumlarının üzərinə bir neçə öhdəlik qoyur. Bu göstərişlər konteynerlərin sayını, onların yerləşdirilmə məsafəsini tənzimləyir, yaşayış məntəqələrinin mütəmadi olaraq təmizlənməsi öhdəliyini ehtiva edir, tullantıların basdırılmasını qadağan edir. Bu sahədə dövlət nəzarətini ETSN həyata keçirir. Tullantıların toplanması və daşınması prosesləri isə yerli icra hakimiyyətləri və onların nəzdindəki MKTİB-nin səlahiyyətindədir. Digər vacib tənzimləmə sənədi Nazirlər Kabinetinin “Şəhərlər və digər yaşayış məntəqələri ərazisinin sanitariya qaydalarına, gigiyena və ekoloji normativlərə uyğun olaraq təmizlənməsi, məişət tullantılarının müvəqqəti saxlanılması, müntəzəm daşınması və zərərsizləşdirilməsi Qaydaları”dır. Qaydalara əsasən, konteynerlər üçün xüsusi yerlər ayrılmalıdır, tullantıların daşınması xüsusi avtonəqliyyatla həyata keçirilməlidir, tullantılar emal qurğularına və ya poliqonlara daşınmalıdır, poliqon ərazilərinin seçilməsi və quraşdırılması zamanı yerli əhali ilə məsləhətləşmələr aparılmalıdır, poliqonun yarada biləcək ekoloji və səhiyyə zərərləri nəzərə alınmalı və minimizasiyası üçün addımlar atılmalıdır. İƏT-lərin apardığı kampaniya çərçivəsində aydın oldu ki, bu qanuni göstərişlər, müntəzəm olaraq, əməl edilmir.

Ümumilikdə, bu dövr ərzində 10 regionda maraqlı və məsul tərəflərlə 28 görüş təşkil olunmuşdur. Bu görüşlər tullantıların idarə olunmasına cavabdeh olan kənd və şəhər bələdiyyələri, MKTİB-lər və onların yerli nümayəndəlikləri, yerli icra hakimiyyətləri, ETSN-ni yerli idarələri və digər aidiyyəti qurumlarla keçirilmişdir.

Kampaniyanın coğrafiyası və auditoriyası nəzərə alınaraq, digər qurumlarla da görüşlər təşkil olunmuşdur. Bu qurumlara Mingəçevir Dövlət Universiteti, rayon gənclər evi, rayon gigiyena və epidemiologiya mərkəzi, Qida Təhlükəsizliyi Agentliyinin regional idarəsi, rayon su-meliorasiya istismarı idarəsi, müxtəlif məktəblərin şagirdləri və Milli Tarix-Memarlıq Qoruğu daxil olmuşdur.

Bundan əlavə, Astara və Bərdə rayonlarında icma üzvləri öz rayonlarını Milli Məclisdə təmsil edən deputatlar – Vasif Qafarov və Fatma Yıldırımla da görüşlər keçirmişdir.

İcma fəallarının dövlət qurumları ilə görüşlərdən təəssüratlarını müxtəlif cür təsvir etmək mümkündür. Bəzi çıxarışlar:

***Zaqatala icması:*** *"Əhali ilə görüş icmalını dövlət qurumlarının nümayəndələrinə çatdırdıq. Sıxlığa uyğun olaraq konteynerlərin yerləşdirilməsinin zəruriliyi təsdiq edildi. Zaqatala qalası ətrafındakı natəmizlik barədə bildirməsindən sonra həmin ərazilərin bir həftə ərzində abadlaşdırılmasına nail olduq".*

***Hədəf Şəki İcması:*** *"Dövlət qurumları problemdən agah olsalar da, həll etmək üçün büdcə resurslarının kifayət etmədiyini bildirirdilər. Tullantılara dair normativlərin pozulmasına görə cərimələr problemi kökündən həll edə bilmir."*

***Biləsuvar icması:*** *"Bəzi hallarda dövlət qurumları bu cür təşəbbüslərlə qarşılaşdıqda sorğu-suala tuturlar, "niyə fayda vermək istəyirsən?", "bu kimin nəyinə lazımdır?" və sairə. Lakin yekunda istək və niyyətin səmimi olduğunu anlayandan sonra əməkdaşlığa açıq olurlar. Bəzi görüşlər isə insanı məyus edə bilər. Lakin bu halda da ünsiyyəti kəsmək lazım deyil, çünki insanlar problemin həll edilməsində maraqlıdırlar və dövlət qurumlarına məsuliyyətlərini xatırlatmaq lazımdır."*

***Mil İmişli İcması:*** *"Bu kampaniyanı keçirməməzdən əvvəl icmamız regional səviyyədə tanınırdı. Bu, dövlət qurumları ilə ünsiyyətin effektiv qurulmasında yardımçı oldu. Bizdə bu fikir möhkəmləndi ki, dialoq və əməkdaşlıq üçün imkanlar tükənməyib. Lakin bəzi dövlət orqanları nümayəndələrinin sonrakı davranışından bunu da müşahidə etdik ki, vətəndaş cəmiyyəti təşkilatlarına doğru olmayan yanaşma var. Bu stereotipləri qırmaq üçün dayanıqlı fəaliyyət və ünsiyyət müstəsna vacibdir."*

## 3.4 Təmizlik aksiyası

Bu kampaniya çərçivəsində İƏT-lərin həyata keçirdiyi növbəti mərhələ təmizlik aksiyalarıdır. Təmizlik aksiaylarının məqsədi icmanı, sakinləri və vətəndaşları əməli hərəkətdə birləşdirərək onlarda həmrəylik hissi oyatmaq və tullantılardan təmizlənmiş ərazi üzərindən abadlıq nümunəsi yaratmaqdır.

***Mingəçevir İcma İnkişaf Mərkəzi***

Mingəçevir su anbarının sahilində, çimərlik kimi istifadə olunan ərazidə 18 nəfərdən ibarət qrupla təmizlik aksiyası həyata keçirildi. Yay mövsümündə bu ərazi istirahət üçün sıx ziyarət edildiyindən, tullantıların yığılması ciddi çirklənməyə səbəb olur. Buna görə də ərazinin təmizlənməsi vacib və faydalı hesab edildi.

Aksiyada könüllülər, Mingəçevir Dövlət Universitetinin müəllimi və müxtəlif maraqlı şəxslər iştirak etdilər. İştirakçılar arasında gənclər və fərqli yaş qruplarından olan şəxslər yer aldı. Aksiya zamanı həm ərazidə olan insanlara, həm də sosial şəbəkələr və saytlar vasitəsilə geniş auditoriyaya təsir göstərdiyimizi düşünürük.

***Hədəf Şəki İcması***

15 nəfər icma fəalının cəlb olunduğu tədbir Giləhli ərazisində və Hikmət Ziya küçəsində MKTİB işçiləri ilə birlikdə həyata keçirilib. Prosesə zibillik ərazilərin şəkil və videoların çəkib sosial şəbəkələrdə paylaşılması və özləri ilə birbaşa görüşüb COP29 ərəfəsi olduğunu vurğulamaqla cəlb etdik. İcma üzvləri yalnız zibilləmək haqqında cərimə plakatı zibillik ərazilərinə vurulmasında iştirak edib.

***Gəncə Regional İcma Mərkəzi***

15 nəfərin cəlb olunduğu təmizlik aksiyası Gülüstan qəsəbəsində həyata keçirdik və nəticədə 600 kv metr ərazi təmizləndi. Məhəllələrin seçimində sakinlər tərəfindən bizə ünvanlanan müraciətlər böyük rol oynayırdı. Aksiyada sakinlər və MKTİB işçiləri də iştirak etdilər. Bununla, səlahiyyətli qurumlar və vətəndaş arasında körpü rolunu oynamağa cəhd etdik. Vətəndaşlar MKTİB-nin iş prinsipləri ilə tanış oldu və birliyin işçiləri ilə birgə təmizlik aksiyasında iştirak etdilər, MKTİB isə vətəndaşların tələbləri və problemləri ilə yaxından tanış ola bildilər. Həmin ərazinin gələcəkdə təmiz saxlanılmasını təmin etmək üçün maarifləndirmə tədbirləri təşkil edildi.”

### *Göyçay İcma İnkişaf Mərkəzi*

Aksiyaları kampaniya apardığımız üç məhəllədə həyata keçirdik. Tullantıların yığılıb qalmasının əsas səbəbi əhalinin sıx məskunlaşdığı, toplam 2100 nəfər sakinin yaşadığı ərazidə cəmi 24 zibil qutusunun mövcud olması idi. Aksiyalar sakinlərlə birbaşa əlaqə qurmaq və etimadlarını qazanmaq üçün əhəmiyyətli oldu. Tədbirlərdə qadınlar da fəal iştirak edirdi. Aksiyalar zamanı yerli sakinlər və MKTİB işçiləri də yardım edirdidilər. Aksiyaların nəticəsində sakinlərin ekoloji məsuliyyəti artır, həmrəylik hissi güclənir, dövlət qurumları ilə əməkdaşlıq yaranır. Yekunda həmin ərazilərin qismən də olsa, təmiz saxlanılmasını müşahidə etdik. Lakin tam nəticə üçün əhalinin daimi maarifləndirilməsi və tədbirlərin davam etdirilməsi vacibdir.



***Şəkil 7:*** *Göyçay İcma İnkişaf Mərkəzinin təmizlik aksiyası*

### *Lənkəran Dəmirağac Təhsil İcması*

Lənkəran rayonunun Viravul kəndində stimullaşdırıcı tədbir olaraq kağız-karton tullantıların ağac tinglərinə dəyişdirilməsi üçün müsabiqə təşkil olundu. Tədbir çərçivəsində 2 tona yaxın kağız tullantısı yığılaraq makulaturaya təhvil verildi. Makulaturanın qarşılığında əldə edilən 60 AZN məbləğində pul ilə ağac tingləri alınaraq kiçik bir bağça salındı. Müsabiqəyə 23 qız və 37 oğlan şagird qatıldı, valideynlər isə bu təşəbbüsü müsbət qiymətləndirdilər.

Tədbir, həm evlərdə təmizlik və nizam-intizamın təmin edilməsi, həm də şagirdlərin tərbiyəsində əlavə bir addım olaraq önəmli rol oynadı. Bu təşəbbüs, yaşından asılı olmayaraq hər kəsin təbiəti qorumaq üçün bir addım ata biləcəyini göstərdi. Xüsusilə, bir ton kağızın onlarla ağacın kəsilməkdən xilas olmasına səbəb olduğu faktı tədbirə qatılanların ətraf mühitə olan marağını artırdı.

***Biləsuvar İcması***

Biz 17-dən çox yerli sakinin iştirakı ilə təmizlik aksiyası və ağacəkmə aksiyası da həyata keçirdik. Məkan olar Çinarlı kənd mərkəzində və qəbirstanlıqda həyata keçirdik. Qəbirstanlıqda 2 hektar ərazi tullantılardan təmizləndi. Birinci aksiya kəndin mərkəzi oldugu ucun icmanı, kənd əhalisini toplamaq daha əlverisli oldu.Və aksiya daha effektli oldu.İkinci aksiya qəbirstalıq ərazisini seçdik və kənd əhalisinin marağı var idi. Ən sevindirici hal budur ki, əhali bu cür aksiyaların daha cox olmağını istəyir. Baxmayaraq ki, ilk dəfə idi keçirilirdi və qadınların iştirakı yüksək idi. Aksiyada qadınlar, kişilər, uşaqlar  və yerli ekologiya idarəsi ilə yanaşı Aranlı, Çinarlı  kənd icra nümayəndəliyinin əməkdaslari  iştirak etdilər. Əraziləri təmiz saxlamağa çalışırlar, amma qeyd etdiyim kimi tullantılar kənddən daşınmır. Nə qədər ki, tullantı daşınmasa müəyyən müddət sonra yenə eyni mənzərə olacaq.”



***Şəkil 8:*** *Biləsuvar İcmasının təmizlik aksiyası*

***Astara İcması***

Təmizlik aksiyaları yerli sakinləri bir araya gətirərək icma hissini gücləndirir və sosial əlaqələri möhkəmləndirir. Bu cür tədbirlər insanlar arasında əməkdaşlıq və həmrəylik ruhunu artırır, sosial məsuliyyət hissini inkişaf etdirir. Asxanakəran kəndində keçirilən təmizlik aksiyası 2 böyük ərazidə həyata keçirildi. Bu ərazilər, kənd sakinlərinin, məktəblilərin və səhiyyə işçilərinin sıx olduğu bölgələr idi.

Aksiyaya məktəb kollektivi, icma üzvləri, sakinlər və icra nümayəndəliyinin əməkdaşları qatıldı. Sakinlərə və dövlət qurumlarına məlumat verərək və onları dəvət edərək tədbirin keçirilməsinə dəstək aldıq. Təmizlik aksiyasının nəticəsində ərazi təmiz saxlanılır və insanlar gördükləri işlə fəxr edirlər. Bu, icma daxilində təmiz mühitin qorunmasına, həmçinin sosial birliyə töhfə verən mühüm bir addım oldu.



*Şəkil 9: Astara icmasının təmizlik aksiyası*

### *Mil İmişli İcması*

"Mil" icmasının təmizlik aksiyaları keçirməklə bağlı təcrübəsi göstərir ki, belə tədbirlər icma üzvlərini problemlərin həllinə daha aktiv şəkildə cəlb edir. Kampaniya çərçivəsində MTS arxının bir hissəsi və arx boyunca qanunsuz yaradılmış zibillik, ümumilikdə 200 kv metr ərazi təmizləndi. Aksiyada 20-dən şəxs- icma üzvləri, yerli sakinlər, qadınlar, təqaüdçülər və bələdiyyə nümayəndələri iştirak etdilər. Sakinlər əvvəlcədən məlumatlandırılmış, yazılı bildirişlər paylanmış və sosial media vasitəsilə dəvət edilmişdilər. Dövlət və bələdiyyə qurumlarının iştirakı isə keçirilmiş görüşlərdə razılaşdırılmışdı.



*Şəkil 10: Mil İmişli İcmasının təmizlik aksiyası*

Ümumilikdə, kampaniya dövründə İƏT-lər **7 rayonda** - Astara, Biləsuvar, Gəncə, Göyçay, Şəki, İmişli, Mingəçevirdə icma fəalları, sakinlər, dövlət qurumlarının nümayəndələri ilə birlikdə 10 təmizlik aksiyası həyata keçirmişdir. Bəzi İƏT-lər aksiyaları birbaşa kampaniyanın keçirdiyi məkanlarda (Astara, Biləsuvar, Gəncə, Göyçay, İmişli), bəziləri isə sakinlərin sıx olduğu və ya tanınan ərazilərində (Şəki, Mingəçevir) həyata keçirmişdir. Aksiyalarda, ümumilikdə, **55 qadın, 129 kişi olmaqla, 184 şəxs** iştirak etmişdir. Aksiyanın birbaşa nəticəsi olaraq **4000 kvadrat metr ərazi tullantılardan təmizlənmişdir**, İƏT-lərdə birgə hərəkət vərdişləri güclənmişdir.

## 3.5 Maarifləndirmə tədbirləri

İƏT-lərin kampaniya apardığı müddətdə qarşılaşdığı ən vacib çatışmazlıqlardan biri ekoloji savadlılıq səviyyəsinin qənaətbəxş olmamasıdır. Ekoloji maarifləndirmə vətəndaşlar tullantıların düzgün idarəedilməsi barədə vərdişləri aşılayır, onların fərdi və ictimai məsuliyyətini xatırladır və nəticədə ətraf mühitin vəziyyətinin yaxşılaşdırılmasına gətirib çıxarır.

***Zaqatala İcması***

Maarifləndirici görüşlər çərçivəsində 3 fərqli məktəblərdə fərqli ekoloji mövzularda təlimlər keçirdik. Zaqatala rayon Muxax kənd tam orta məktəbində "Su hövzələrinin çirklənməsi" mövzusunda, Danaçı kənd tam orta məktəbində təkrar emal və ekoloji mövzuda maarifləndirici görüş, Əliabad qəsəbə 1 saylı tam orta məktəbin şagirdləri ilə "Ekoloji problemlərin sosial və iqtisadi təsirləri" mövzusunda görüş keçirdik. Danaçı kəndində təşkil olunan görüşdə peşəkar aqronom kompostun hazırlanması üsulları haqda məlumat verdi. Bu üç tədbirdə 150-yə yaxın məktəbli iştirak etdi. Yaxın gələcək üçün maarifləndirici tədbirlərin sayını artıraraq daha çox insana çatmaq, zehnlərində bu mövzuların lehinə fikirlər yaradaraq cəmiyyətə bir çox mövzularda dəstəyi daha inamlı şəkildə göstərə bilmək adına yaranan bürokratik çətinlikləri aradan qaldırmağımız bizim tədbirləri, təlimləri, görüşləri insanların tələbinə uyğun şəkildə keçirməyimizə yardımçı olacaqdır.




***Şəkil 11:*** *Zaqatala İcmasının məktəblilərlə maarifləndirmə tədbiri*

### *Hədəf Şəki İcması*

Kampaniya dövründə 2 maarifləndirmə tədbiri həyata keçirdik. Qadınlarla təşkil edilmiş və məişət tullantılarına həsr olunmuş fokus qrup görüşündə müxtəlif yaş qruplarından (29-72 yaş) 18 nəfər qadın iştirak edirdi. Bu görüşdə iştirakçıların gəldiyi qənaət bundan ibarət oldu ki, tullantılarla bağlı məsuliyyətli yanaşmağa özümüzdən və ailəmizdən yanaşmayılıq. İkinci görüş isə məktəblilərlə həyata keçirilmiş **3R** görüşü idi. Tullantıların düzgün çeşidlənməsi və istifadəsi, azaldılması haqqında interaktiv təqdimatla başladı və qrup işi ilə davam etdi. Qrup işi tullantıları istifadə oluna biləcək əşyalara çevirmək haqqında idi. Uşqalar rəngli boyalarla tullantıları boyayaraq ofisdə istifadə üçün kitab rəfi və dibçəklər hazırladılar. **16 məktəbli 10 qız, 6 oğlan iştirak etdi.**

***3R (Reduce, Reuse, Recycle – Azalt, Təkrar istifadə, Emal)*** *məişət tullantılarının idarəedilməsinə yeni yanaşmanı ehtiva edir. Məqsəd tullantıların təsirini minimuma endirmək üçün istehlakı azaltmalı, istehlak dövrü bitmiş məhsulları yenidən istifadəyə yönləndirmək, əgər bu da mümkün deyilsə, tullantıları emal edərək ona ikinci həyat verməkdir. Bu formada olan təşəbbüslər vətəndaşların sosial məsuliyyətin artmasına və yerli qurumların öhdəliklərinin daha yaxşı yerinə yetirilməsinə təşviq edir.*



**Şəkil 12:** *Hədəf Şəki İcmasının maarifləndirmə tədbiri*

### *Biləsuvar İcması*

Tullantıların idarə olunması mövzusuda Biləsuvar rayon Əlövsət Eynullayev adına 4 nömrəli tam orta məktəbin peşə təmayüllü 10-11- ci sinifinə təlim keçdik. Təlim cox maraqlı və faydalı keçdi. Rayon mərkəzində zibil qabları olduğundan və daşınmasından irəli gələrək təlimin orda keçirilməsinin daha məqsədəuyğun olduğunu düşündük. Çünki zibil qablarının olmadığı və zibilin daşınmadığı ərazilərdə hər zaman eyni sualla qarşılaşırıq - bəs zibilləri hara ataq?

***Göyçay İcma İnkişaf Mərkəzi***

Kampaniya zamanı müşahidə etdiyimiz problemlərdən də biri xəzəllərin yandırılması ilə bağlı idi. Bu proses ətraf mühitə ciddi ziyan vurur. Buna görə də tullantılara məsuliyyətli yanaşmanı tətbiq etmək üçün kompost barədə yuxarı yaş qrupu olan sakinlərlə maarifləndirmə tədbiri həyata keçirdik, sosial media səhifəmiz üçün kompost barədə viderolik hazırladıq. Maarifləndirmə tədbirlərində əsas hədəf qruplarımız evdar qadınlar. yaşlı və ahıl sakinlər və məktəblilər idi. Sahə işi zamanı problemlər aşkar olunduqca biz sakinlərlə maarifləndirici görüşlər həyata keçirirdik. Məsələn, kampaniya keçirilən məhəllələrdə yerləşən mağazaların işçiləri və idarəçiləri ilə bu cür görüşlər təşkil etdik. Görüşlərdə tullantıların qalaqlanmaması üçün atılması lazım olan tədbirlər və düzgün idarəolunmasını müzakirə etdik. Bizim qənaətimiz bu oldu ki, bu cür tədbirlər fərdi, qrup şəklində olmaqla mütəmadi şəkildə həyata keçirilməlidir. Çünki bu cür tədbirlərdən sonra iştirakçılar tullantılara daha düzgün və məsuliyyətli yanaşaraq ətraf mühitə vurulan ziyanın azaldılması üçün üzərilərində məsuliyyət hiss edirlər.

***Lənkəran Dəmirağac Təhsil İcması***

İlk maarifləndirmə tədbirimiz Tütəpeştə kənd məktəbinin akt zalında keçirildi. ETSN-in 1 saylı Regional İdarəsinin əməkdaşı ətraf mühitin mühafizəsi və tullantılar mövzusunda seminar keçdi. Tədbirdə 45 nəfər iştirak etdi, onların 25-i oğlan, 20-i qız idi və mövzu ilə bağlı suallar verdilər. Növbəti tədbirdə Lənkəran Dövlət Universitetinin müəllimi tələbələrlə ekoloji sorğunun nəticələrini paylaşdı və ekoloji müzakirə apardı. Sinif rəhbərləri ekoloji məsələlərə real yanaşmanı və məktəbdə ekoloji fənlərin tədrisini müzakirə etdilər. Tədbir məktəbin bağçasında tullantıların çeşidlənməsi sahəsinə baxışla tamamlandı.

Sonrakı maarifləndirmə tədbiri Lənkəran rayonunun Viravul kəndində keçirildi. Kağız-karton tullantılarının ağac tinglərinə dəyişdirilməsi üçün müsabiqə başlandı. 2 tona yaxın kağız tullantısı makulaturaya təhvil verildi və əldə olunan vəsaitlə ağac tingləri alındı. 23 qız, 37 oğlan şagirdin qatıldığı müsabiqə valideynlər tərəfindən də müsbət qarşılandı. Bu tədbir həm təmizlik, həm də şagird tərbiyəsi baxımından faydalı oldu. Hər kəs yaşına baxmayaraq təbiəti qorumaq üçün addımlar ata bilər.

***Gəncə Regional İcma Mərkəzi***

Kampaniyanın keçirildiyi Gülüstan qəsəbəsində əsas nəzərəçarpan çatışmazlıqlardan biri yerli əhalinin ekoloji savadlılığının az olması idi. Bundan başqa, sakinlər tullantı problemləri ilə bağlı dövlət orqanlarına necə müraciət etməli olduqlarını, tullantıların idarə edilməsi ilə bağlı hansı haqq və öhdəliklərə sahib olduqlarını bilmirlər. Buna görə də hələ məhəlli görüş zamanı iştirakçılara içərisində bu mövzuda qanun qarşısında daşıdıqları öhdəliklər, tullantıların idarə olunması; zibillərin daşınması, çeşidlənməsi, utilizasiya və minimalizasiyası haqqında məlumatların yer aldığı məlumat vərəqəsi paylanıldı.

Maarifləndirmə mərhələsində isə Gəncə Regional İcma Mərkəzinin ofisində Gülüstan qəsəbəsində yaşayan, 17-26 yaş aralığında gənclər üçün qrup işi təşkil olunub. Qrup işi zamanı tullantıların ətraf mühitə, insan sağlamlığına və iqtisadiyyata vurduğu zərərlər haqqında iştirakçılara məlumat verildi. Mövzunun iştirakçılar tərəfindən daha yaxşı qavranılması üçün prossesin sonunda onlara tullantılarla bağlı sadə bir case study təqdim edildi.

Hər iki tədbirin sonunda aldığımız geridönüşlərə əsasən hər iki tədbirin kifayət qədər uğurlu olduğunu deyə bilərik. Müşahidələrimizə əsasən iştirakçıların suallarına cavab tapdıqlarını və yeni bacarıqlar əldə etdiklərini vurğulaya bilərik.




***Şəkil 13:*** *Gəncə Regional İcma Mərkəzinin maarifləndirmə tədbiri*

Maarifləndirmə tədbirlərinin mahiyyəti, mövzusu və formatı İƏT-lərin prioritetlərindən, hədəf auditoriyalarından və fəaliyyətləri ilə birbaşa bağlı olmuşdur. Bununla əlaqədar İƏT-lər maarifləndirmə tədbirlərində tullantılar mövzusuna müxtəlif yönlərdə baxmağa çalışmış, bu cür tədbirlərə hər kəsi cəlb etməyə çalışmışdır. Yekunda 10-dan çox maarifləndirmə fəaliyyətlərindən **500-ə yaxın sakin faydalanmışdır**. Tullantılar mövzusu çoxşaxəli və ekosistemin bir çox sahələrinə bağlı olduğundan maarifləndirmə tədbirlərinin kontenti də fərqli olmuşdur.

## 3.6 İctimai müzakirə

Bu mərhələ kampaniyanın məntiqi yekunu kimi, İƏT-lərdən və dövlət qurumlarından toplanan rəy və məlumatların səlahiyyətli orqanlara çatdırılmasını hədəfləyirdi. Bunun üçün ictimai iştirakçılıqla bağlı qanunvericiliyə qısa nəzər salmaq vacibdir.

Konstitusiyanın 54-cü maddəsi vətəndaşların dövlət və cəmiyyət həyatında iştirak hüququnu təsbit edir. “İctimai iştirakçılıq haqqında” Qanun ictimai müzakirələr də daxil olmaqla müxtəlif iştirak formalarını nəzərdə tutur. Bu müzakirələr əhalinin təkliflərini öyrənmək üçün dövlət və yerli özünüidarəetmə orqanlarının nümayəndələri, vətəndaş cəmiyyəti, hüquqi şəxslər və ekspertlərin iştirakı ilə keçirilir. “Vətəndaş müraciətləri haqqında” Qanun ictimai iştirakçılığın bir forması kimi kollektiv müraciətləri də tanıyır.

İctimai vəkillik kampaniyalarının yekununda əldə edilən rəy və təcrübələr əsasında vəziyyətin yaxşılaşdırılmasına dair təkliflər hazırlanmalıdır. Bu təkliflər həm yerli sakinlərin ehtiyaclarını, həm yerli qurumların səlahiyyətlərini, həm də aktual təcrübələri nəzərə almalıdır.

***Hədəf Şəki İcması***

İlkin olaraq təkliflər paketini hazırladıq. Mövzunu şəhərimizin problemini göz önünə alaraq, komanda müzakirəsi şəklində təyin etdik. İctimai müzakirənin təşkili, təqdimatlar, reqlament məsələləri ilə bağlı məsul şəxsləri təyin etdik. Tədbirdə icmanın və apardığı fəaliyyətlə iştirakçıları tanış etdik, iqlim və gender mövzusunda təqdimat həyata keçirdik, hazırladığımız təkliflərin müzakirəsini apardıq, ekspertdən məişət tullantılarının idarəedilməsi ilə məruzəni dinlədik. Tədbirdə sakinlər, icma üzvləri, ekspertlər, maraqlı tərəflər və dövlət qurumlarının nümayəndələri olaraq 23 nəfər iştirak etdi. Bu 23 nəfərin 10-u qadın idi. Dövlət qurumlarından Şəki Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsi, Şəki Gigiyena və Epidemiologiya İdarəsi, Şəki “Yuxarı Baş” Milli Tarix Memarlıq Qoruğu, Şəki MKTİB, ETSN-in 7 saylı Regional İdarəsi nümayəndələri iştirak edirdi. Yerli medianın tədbiri işıqlandırması geniş ictimaiyyətdə maraqla qarşılandı.



***Şəkil 14:*** *Hədəf Şəki İcmasının ictimai müzakirəsi*

***Mil İmişli İcması***

İcmamızın təşkil etdiyi ictimai müzakirələr hər zaman maraqla qarşılanır və bu dəfə də problemə dair təhlil və təkliflərə şərait yaradıldı. Komanda olaraq tədbirin vaxtını müəyyənləşdirdik, məsul qurumlara dəvət göndərdik və sosial mediada məlumat yaydıq. Kampaniya “MTS arxını sağlamlaşdıraq!” adı altında arxın və ətrafının təmizlənməsi və suyunun ekoloji normaya uyğunlaşdırılması məsələlərini nəzərdə tuturdu. Müzakirə mövzusu da buna uyğun olaraq “MTS arxının çirklənməsinin ətraf mühitə təsiri” oldu. Tədbirdə fəal sakinlər və məsul qurumlar iştirak etdilər. Sakinlər problemdən ən çox təsirləndiklərini bildirərək təkliflərini “Yekun sənəd”də qeyd etdilər. Məsul qurumlar problemi etiraf edərək, Su İdarəsi arxın 3 ildir təmizlənmədiyini bildirdi. MKTİB rəsmisi lazımi avadanlığın olmadığını vurğuladı. İcra hakimiyyəti isə məsələnin müzakirə olunduğunu və kompleks təmizlik işinin aparılacağını bildirdi. Bu müzakirə kampaniyanın ən təsirli tədbiri oldu və ümid yaratdı ki, problem tezliklə həll olunacaq.

***Gəncə Regional İcma Mərkəzi***

Gülüstan qəsəbəsində yaşayan sakinlərlə birgə ərazinin təmizliyini və ekoloji şəraitini yaxşılaşdırmaq məqsədilə zibil qablarının artırılması və mövcud qabların strukturunun dəyişdirilməsi ilə bağlı geniş bir təşəbbüs həyata keçirdik. Bu çərçivədə, qəsəbə sakinləri ilə bir araya gələrək, kollektiv şəkildə İcra Hakimiyyətinə rəsmi müraciət hazırladıq. Müraciətdə mövcud problemləri ətraflı şəkildə izah edərək, qəsəbədə zibil qablarının çatışmazlığının təmizlik səviyyəsinə mənfi təsir etdiyini və ekoloji vəziyyətin pisləşməsinə səbəb olduğunu vurğuladıq. Həmçinin, mövcud zibil qablarının çoxunun köhnəlməsi və ya lazımi funksiyanı yerinə yetirə bilməməsi problemin daha da dərinləşdiyini qeyd etdik. İmzatoplama zamanı Gülüstan qəsəbəsinin aktiv vətandaşları köməklik göstərdilər. İlk cəhdimiz də qərəzlə və etimadsızlıq ilə qarşılaşdığımız və istənilən nəticəni əldə edə bilmədiyimiz üçün ikinci cəhdimizdə icma üzvlərindən kömək istədik. Onların köməkliyi və daha öncəki fəaliyyətlərimizin töhvəsi olaraq, 60 nəfərdən ibarət qəsəbə sakini müraciətə imza atdı. Toplanan imzalar, sakinlərin bu problemin həllinə nə qədər böyük əhəmiyyət verdiyini və onların birgə fəaliyyətə hazır olduğunu göstərir.”

***Biləsuvar İcması***

Biləsuvar rayon Çinarlı və Aranlı kənd sakinlərindən tullantıların kənddən daşınması üçün 47 imza toplandı. İlkin olaraq, imzatoplamanı təklif edən sakinlərdən başladıq. Əhali böyük arzu, həvəslə iştirak etdi və bunu çoxdan etməli olduqlarını bildirdilər. Təəssüf ki, əhalinin bir hissəsi çox inamsız, həvəssiz yanaşdı.

Təkliflərdən irəli gələrək İƏT-lər ictimai müzakirə tədbirləri və imzatoplama kampaniyaları həyata keçirmişdir. İƏT-lərin mövcud təşkilati vəziyyətini nəzərə alaraq, bu tədbirlərin həyata keçirilməsi komandalaşma və əlaqələrin qurulması vəziyyətindən asılı olmuşdur. Habelə, İƏT-lər 3 rayonda (Şəki, Göyçay və İmişli) ictimai müzakirə tədbirləri həyata keçirmiş, 6 rayonda isə (Göyçayda 3 məhəllədən, Gəncədə Gülüstan qəsəbəsindən, Biləsuvarda Çinarlı və Aranlı kəndlərindən, İmişlidə 5 məhəllədən, Astarada 2 kənddən (Asxanakəran və Hamoşam), Bərdədə Alaçadırlı kəndindən) 820 imza toplanmışdır.

## 3.7 Monitorinq və qiymətləndirmə

Monitorinq və qiymətləndirmə mərhələsinin əsas məğzi İƏT-lərin geriyə baxaraq fəaliyyətlərini dəyərləndirmələrini, nəyin yaxşı, nəyin pis olduğunu anlamaq və gələcək üçün planların qurulması üçün ilkin addımları atmaq idi. Başqa tərəfdən, Artikl 54-ün də komanda heyəti ictimai vəkillik dövründə İƏT-lərin fəaliyyətini mütəmadi izləyərək kampaniyanın rəvan və səhih keçirilməsi üçün yardımını əsirgəmirdi.

Bu dövr ərzində biz İƏT-lərdən 2 dəfə fəaliyyət hesabatları aldıq. Kampaniya dövrünün ortasında və yekununda keçirilən hesabatlar fəaliyyətin həyata keçirilməsini izləmək, keyfiyyətini qiymətləndirmək və boşluqları doldurmaq üçün əhəmiyyətli idi. Kampaniya dövründə təşkilat heyəti 8 icmaya səfər edərək 50-dən çox icma fəalı ilə görüşlər həyata keçirmişdir. Bu görüşlər kampaniyanın gedişatı ilə bağlı əyani məlumat almaq üçün vacib idi. Kampaniya dövründə gedişatın izlənilməsi üçün mütəmadi olaraq onlayn görüşlər həyata keçirilirdi. Bu onlayn görüşlər kampaniya ilə bağlı yenilikləri əldə etmək və hər mərhələyə aid mentorluq proqramının keçirilməsini nəzərdə tuturdu. Kampaniyanın yekununda fəaliyyətlərin təsirinin qiymətləndirilməsi üçün data hesabatı da İƏT-lər üçün hazırlanmış və onlar tərəfindən müvafiq məlumatlar təqdim edilmişdir.

İƏT-lər də, öz növbəsində, kampaniya yekunlaşandan sonra sakinlərdə, dövlət qurumlarında, tullantılarla bağlı vəziyyətdə dəyişiklikləri müşahidə etmək və kampaniyanın təsirliliyinin qiymətləndirilməsi üçün monitorinq təşkil etmişdirlər.

***Zaqatala İcması***

Kampaniyanın ümumi dəyərləndirməsi Zaqatala icması adından nəticəyönümlü olduğunu düşünürük. Ona görə ki, ilk olmasına baxmayaraq keçirilən məhəlli, qurumlarla, gənclərlə görüşlərimiz uğurlu nəticələnmişdir. Kampaniya çərçivəsində əldə olunan uğurların davamlılığı üçün icma və qurumlarla daim əlaqədə olmaq, emosional dəyərləri qorumaq, hər zaman baş verən problemlər zamanı əlçatanlığımızı hiss etdirməkdir. Sosial şəbəkələrdə də aktivliyi qoruyaraq icmamızın daha çox insanlarına səsimizi çatdıra bilərik.

***Mil İmişli İcmas***ı

Bizim apardığımız təmizlik aksiyasında 1 yük maşını tutacaq qədər tullantı toplanıldı, arx kənarındakı ən böyük zibillik ləğv edildi. Kampaniya dövründə şəhər bələdiyyəsi tərəfindən MTS arxının kənarında 3 gün davam edən təmizlik işi aparıldı (lakin toplanan tullantıların bir hissəsi yerində yandırıldı, digər hisəsi isə hələ də kənara daşınmayıb). “Hər kəs öz evinin qarşısını təmiz saxlasın!” çağırışımıza qoşulan sakinlər də MTS arxı boyunca müxtəlif yerlərdə təmizlik işi görüblər, bir neçə zibillik ləğv edilib. Lakin məsul qurumlar tərəfindən görülməli olan əsas iş 2025-ci ilin yanvarına planlanıb. Buna görə kampaniyanın əsas nəticələri yanvarın sonunda bilinəcək. “Mil” icması tərəfindən həyata keçirilən bu kampaniya rayonun ictimai həyatında az da olsa canlanma yaradılması, ictimai iştirakçılığın artırılması baxımından əhəmiyyətlidir. Kampaniyanın müsbət nəticə verməsi sakinlərdə problemin birgə həllinə olan inamı artıra bilər (biz buna qismən nail olmuşuq). Bu kampaniya bir yaxşı nümunə olaraq icma üzvlərini digər problemlər ətrafında da səfərbər edə bilər.

***Göyçay İcma İnkişaf Mərkəzi***

İnsanları ətraf mühitin qorunması və tullantıların idarə edilməsi məsələlərində daha həssas olmağa təşviq etdik. Bu, onların davranışlarında müsbət dəyişikliklərə səbəb olaraq tullantılara daha diqqətli yanaşmalarını təmin etdi. Eyni zamanda, icmada ekoloji məsələlərlə bağlı əhəmiyyətli müzakirələr apararaq insanların bu məsələlərə fəal şəkildə qoşulmasına nail olduq. Bu yanaşma icma üzvlərini bir araya gətirdi və problemlərə qarşı birgə mübarizə aparmağa sövq etdi.

Keçirdiyimiz təmizlik aksiyaları və maarifləndirmə tədbirləri nəticəsində tullantıların yığılması və ərazilərin təmiz saxlanması məsələsi daha çox diqqət mərkəzinə çevrildi. Nəticədə tullantıların daha düzgün idarə olunması və ətraf mühitin qorunması sahəsində irəliləyişlər əldə olundu.

Kampaniyanın ən təsirli nümunələrindən biri Bakı küçəsində baş verdi. Əvvəlcə, bu küçənin sakinləri çağırışlarımıza biganə yanaşırdılar. Lakin məhəllənin digər hissəsində apardığımız fəaliyyətlər barədə məlumat əldə etdikcə, maraq göstərməyə başladılar. İctimai dinləmə təşkil etdiyimiz zaman gözlənilmədən həmin binadan beş nəfər tədbirə qatıldı. Onların iştirak etməsinin əsas səbəbi qonşuluqda görülən işlərin yaratdığı müsbət təəssüratlar və bizim haqqımızda eşitdikləri yaxşı rəylər idi.

Bu hadisə göstərdi ki, real və gözlə görülən nəticələr yaratmaq, eləcə də insanlarla səmimi və məqsədyönlü ünsiyyət qurmaq daha çox insanın marağını cəlb edə bilər. Bakı küçəsində yaşanan bu dönüş, kampaniyanın yalnız tullantıların idarə edilməsi ilə məhdudlaşmadığını, həm də icma daxilində həmrəyliyi və ortaq marağı gücləndirdiyini sübut edən vacib bir nümunə oldu.



***Şəkil 15:*** *Göyçay İcma İnkişaf Mərkəzinin imzatoplama kampaniyası*

# 4. Nəticələr: nailiyyətlər və çətinliklər

## *4.1 Nailiyyətlərin icmalı*

Kampaniyanın hazırlanması və icrası çərçivəsində ***10 rayondan 15 icma fəalı*** bilik və bacarıqlarını artırmış, yeni əlaqələr qurmuş və təcrübə qazanmışdır. Ümumilikdə isə 10 rayonda həmin icma fəallarının ətrafında formalaşmış komandalarda  cəmi ***67 icma fəalı*** yer alıb. Təşəbbüslərdə ***gənclər fəal rol oynayıb***,  komandalarda əsasən 26 və 44 yaş aralığında şəxslər təmsil olunub. Bununla belə bəzi rayonlarda (Biləsuvar və Gəncə) təşəbbüslər  daha geniş qrupları, o cümlədən, həmçinin, yaşlı sakinləri əhatə edib

Bu kampaniya yerli tullantıların idarə olunmasında icma iştirakını gücləndirməklə yanaşı, gender bərabərliyini də təşviq edə bilib. Belə ki, proqramın əsas hədəf qrupu olan ***15 icma üzvünün 11-i qadınlar olub.*** Onların ətrafında formalaşmış 10 komandanın 67 üzvünün isə ***57%-i qadın,*** 43%-i kişi olmuşdur ki. Ancaq qadınların iştirakı təkcə say çoxluğu ilə yekunlaşmayıb. Bütün komandalarda İctimai vəkillik kampaniyalarına birbaşa ***qadınlar rəhbərlik edib,*** sakinlərlə, məsul tərəflərlə görüşlərdə və digər tədbirlərlə aparıcı rollarda çıxış ediblər.

Tullantıların idarə olunması mövzulu ictimai vəkillik kampaniyaları çərçivəsində icma fəalları problemlərinə diqqət çəkmək və ərazilərdə mövcud zibil qabı çatışmazlığını aradan qaldırmaq üçün məlumatlandırma kampaniyaları aparılmışdır. Görüşlər zamanı tullantıların çeşidlənməsi və təkrar emal proseslərinin vacibliyi vurğulanmışdır. ***Üç ictimai dinləmə*** təşkil edilmiş, müxtəlif tərəflərin ***rəy və təklifləri toplanaraq*** sənədləşdirilmiş və müvafiq dövlət qurumlarına göndərilməsi üçün ***820 imza toplanmışdır.*** Bəzi İƏT-lərdə tullantı həcmini azaltmaq məqsədilə ictimai yerlərdə ***yeni zibilqabılar quraşdırılmış,*** yerli İƏT-lərin təşəbbüsü ilə ***təmizlik kampaniyaları həyata keçirilmişdir.*** Bu proseslərdə yerli qurumların və vətəndaşların aktiv iştirakı təşviq olunmuşdur.  Nəticədə ***15 ərazidə*** keçirilən təmizlik aksiyası ilə ***4000 kvadrat metrə*** yaxın sahə tullantılardan ***təmizlənmişdir.***

İctimai vəkillik kampaniyaları çərçivəsində yerli İƏT-lər və qərarvericilər arasında əlaqələrin qurulmasına xüsusi diqqət yetirilmişdir. Bu istiqamətdə ***28 məsul tərəflə:***  yerli və mərkəzi icra hakimiyyəti nümayəndəsi, deputat və bələdiyyə üzvü ilə ***birbaşa və məhsuldar görüşlər keçirilmişdir.*** Beləliklə kampaniyalar yalnız əməli nəticələrlə yekunlaşmamış, o cümlədən, İƏT-lərin yerli səviyyəli ***iştirakçılıq qabiliyyətini artırmış*** və gələcək təşəbbüslər üçün ***əməkdaşlıq mühitini gücləndirmişdir.***

## *4.2 Çətinliklər, uğursuzluqlar, mümkün həll yolları və çıxarılan dərslər*

Kampaniya bir sıra uğurlar əldə etsə də, müxtəlif çətinliklərlə də qarşılaşıb. Əsas problemlər arasında vaxt məhdudiyyəti, peşəkar təlimçilərin cəlb olunmasında yaranan çətinliklər, bəzi bölgələrdə qadınların ictimai təşəbbüslərə maraq göstərməməsi və bütün qərarvericilərin əməkdaşlığa eyni səviyyədə açıq olmaması yer alır. Bəzi icmalarda sakinlərin vətəndaş cəmiyyəti təşəbbüslərinə və səlahiyyətli qurumlara inamsızlığı əməkdaşlıq prosesini çətinləşdirir və təşəbbüslərin həyata keçirilməsinə mane olur. Bu isə yerli məsələlərin həlli üçün etibarlı əlaqələrin qurulmasını çətinləşdirir.

Dövlət qurumlarının bəzi nümayəndələrinin laqeyd münasibəti ictimai təşəbbüslərin icrasını çətinləşdirir, stereotipləri gücləndirir və konstruktiv dialoq üçün əlverişli mühitin formalaşmasına mane olur. Bəzi hallarda dövlət qurumları problemlərin həlli üçün kifayət qədər büdcə vəsaiti olmadığını bildiriblər. Bununla yanaşı, tullantılarla bağlı mövcud cərimələrin problemi köklü həll etməməsi əlavə çətinliklər yaradır. Bundan başqa, resurs çatışmazlığı və təşkilati problemlər səbəbindən bir bölgədə planlaşdırılan ekoloji aksiyalar reallaşmayıb. Bu cür uğursuzluqlar yerli icmaların motivasiyasını zəiflədərək onların gələcək təşəbbüslərdə iştirakına mənfi təsir göstərə bilər.

Bəzi icmalarda yerli əhalinin ekoloji savadlılığının aşağı olması və dövlət qurumlarına müraciət prosedurlarını bilməməsi müşahidə edilir. Eyni zamanda, tullantıların idarə olunması ilə bağlı hüquq və vəzifələr barədə məlumatlılığın az olması bu sahədə aktiv iştirakı məhdudlaşdırır. Bu çətinliklər bəzi sahələrdə kampaniyanın təsirini azaltsa da, onların həlli üçün müxtəlif addımlar atmaq mümkündür.

Davamlı ünsiyyət və qarşılıqlı etimadın gücləndirilməsi dayanıqlı əməkdaşlıq üçün vacibdir. Sakinlər və yerli qurumlar arasında etimadın qurulması məqsədilə mütəmadi dialoq platformaları yaradılmalı və birgə fəaliyyətlər təşviq edilməlidir. Dövlət qurumları ilə vətəndaş cəmiyyəti arasında əməkdaşlıq mexanizmləri gücləndirilməli, stereotiplərin aradan qaldırılması üçün maarifləndirmə və təlim proqramları həyata keçirilməlidir. Ekoloji savadlılığın artırılması üçün genişmiqyaslı maarifləndirmə kampaniyaları təşkil edilməli, sakinlərin hüquq və vəzifələri haqqında məlumatlılığı artırılmalıdır. Dövlət büdcəsindən bu sahəyə daha çox vəsait ayrılması üçün effektiv və məqsədyönlü layihələr hazırlanaraq aidiyyəti qurumlara təqdim olunmalıdır.

Bu çətinliklər bəzi sahələrdə kampaniyanın təsirini məhdudlaşdırsa da, əldə olunan təcrübə gələcək təşəbbüslərin daha səmərəli planlanmasına şərait yaradır.

# 5.Yekun

***"Yerli İdarəçilikdə Gender-Əsaslı İştirakın Təşviqi"*** ictimai vəkillik kampaniyası nəzərdə tutulan fəaliyyətlərin ardıcıllıqla və tam icrası, məqsədlərə çatması, təsirin ölçülməsi və davamlılıq baxımından uğurla həyata keçirilib. 2024-cü ilin ikinci yarısını əhatə edən proqram planlaşdırılmış tədbirləri tam şəkildə yerinə yetirmiş, yerli şəraitə uyğunlaşdırılaraq əlavə təşəbbüslərlə genişləndirilib.

Təlimlər, təcrübə mübadiləsi səfərləri, seminarlar və mentorluq proqramları iştirakçıların bilik və bacarıqlarını gücləndirib. Hədəf qrupların məlumatlılığının artırılması, İƏT-lərə yeni üzvlərin cəlb olunması və 10 rayonu əhatə edən, 7 mərhələdən ibarət uzunmüddətli ictimai vəkillik kampaniyası proqramın effektivliyini təsdiqləyib.

Qadınların və gənclərin liderliyi ilə tullantı probleminin ictimai müzakirəyə çıxarılması və bu istiqamətdə maarifləndirmənin gücləndirilməsi kampaniyanın əsas nailiyyətlərindən biri olub. Eyni zamanda, qərarvericilər və vətəndaşlar arasında əlaqələrin qurulması kampaniyanın təsir dairəsini genişləndirib.

Ümumilikdə, kampaniyanın çoxşaxəli fəaliyyəti və əldə olunan nəticələr onun uzunmüddətli davamlılığını təmin edib və həm icra, həm də təsir baxımından uğurlu olduğunu göstərib.

Yerli İdarəçilikdə
**Gender İştirakının**
təşviqi

+994 55 205 05 29
artikl54.info@gmail.com
artikl54
article54.com
Article54PU